2019-cu ilin yanvar ayında ev təsərrüfatlarında sənaye məhsulu istehsalı, habelə hüquqi şəxs yaratmadan fiziki şəxs kimi sənaye sahəsində fəaliyyət göstərənlərin işi də nəzərə alınmaqla 91782 min manatlıq sənaye məhsulu istehsal edilmiş və xidmətlər göstərilmişdir ki, bu da 2018-ci ilin müvafiq dövrü ilə müqayisədə 0,9 faiz çoxdur. Sənaye istehsalının 96,2 faizi malların, 3,8 faizi isə xidmətlərin payına düşmüşdür.

Sənayenin dövlət sektorunda 6036,7 min manatlıq, qeyri-dövlət sektorunda 85745,3 min manatlıq məhsul istehsal edilmişdir.

2018-ci ildə muxtar respublikanın sənaye müəssisələrində 16557 nəfər işçi çalışmışdır ki, bu da 2017-ci illə müqayisədə 2 faiz çoxdur. Sənaye sahəsində bir işçiyə hesablanmış orta aylıq nominal əməkhaqqı 2017-ci illə müqayisədə 1,6 faiz artaraq 388 manat olmuşdur.